# Nəsib bəy Yusifbəyli və Azərbaycan istiqlaliyyəti

## (140 illiyinə həsr olunur)

***Kırımlı dövlət xadimi Cəfər Seyidəhməd Kırımərin xatirələrində yer alan bu məlumatlar Nəsib bəylə bağlı tarixi əhəmiyyət kəsb edir. Kırımər qeyd edir ki, Qaspıralı ciddi cəhdlə bizə elmə sarılmağı tövsiyyə edərkən, Nəsib bəy Yusifbəyli gənclərdə gördüyü imandan, fədakarlıq hisslərindən, xüsusi olaraq inqilab atəşi ilə yanmalarından, bütün əməllərinin xalqı yüksəltməyə və qurtarmağa meyilli olmasından çox sevindiyini bildirib, onları bu yola sadiq qalmağa və bu əməl üçün hazırlanmağa təşviq etdi. Yusifbəylinin bu sözləri kırımlı gəncləri o qədər həyacanlandırdı ki, Qaspıralıya saygılarını belə bir anlıq unudaraq onu böyük coşğu ilə uzun-uzun alqışladılar(1, 189). Nəsib bəy Yusifbəylinin dedikləri orada olan kırımlı tələbə C.S.Kırımərin yaddaşında o qədər dərin iz buraxıb ki, öz xatirələrində sonradan bu söhbətə yer verib***



Ceyhun Nəbi
araşdırmaçı yazar

***Azərbaycan istiqlalı ideyasının fikri və əməli memarları arasında Nəsib bəy Yusifbəylinin özünəməxsus yeri var. Gənclik dönəmlərindən ictimai-siyasi proseslərdə yer alan N.B.Yusifbəylinin düşüncələrinin məhvərində azadlıq dayanırdı. Dövrü mənzərəni gözdən keçirərkən şahid oluruq ki, doğulduğu yurdu Çar Rusiyasının əsarətində, hüquqları geniş şəkildə pozulmuş müsəlmanlar əzilir, həmçinin ermənilər tərəfindən amansızca qətliamlara məruz qalırdı. Belə olan halda müsəlman ictimai-siyasi xadimləri müştərək şəkildə müqaviməti təşkil etmək, basqılar qarşısında duruş gətirmək üçün müxtəlif vasitələrə əl atırdılar. Difai, Müdafiə adlı təşkilatlar qurulur, silahlı müqavimət təşkil edilir( Qaçaq Dəli Alının simasında), yerli və həmçinin mərkəzin bir sıra mətbuat orqanlarında baş verənlərə aydınlıq gətirən məqalələr yazılır, Duma kürsülərində nitqlər söylənirdi və s. Nəsib bəy Yusifbəylinin ictimai-siyasi proseslərə qoşulması həmin həssas dönəmə təsadüf edirdi. Təhsil aldığı dönəmdə İsmayıl bəy Qaspıralı ilə tanışlığı fikir və düşüncələrinin yön almasına təsir etməyə başladı. İsmayıl bəyin qızı Şəfiqə xanımla ailə həyatı qurması isə bu yaxınlığı dahada dərinləşdirdi. Həmin dönəmdən sonra Tərcüman qəzeti səhifələrində Rusiya müsəlmanlarının hüquqları, vəziyyəti və digər mövzularda məqalələr ilə çıxış edirdi. İsmayıl bəy Qaspıralının İstanbul ziyarəti zamanı özü ilə Nəsib bəy Yusifbəylini oraya aparması və orada Nəsib bəyin kırımlı tələbələrə verdiyi tövsiyələr siyasi təşkilatlanma və canlanma istiqamətində diqqət cəlb edəcək məqamlardır.***

Kırımlı dövlət xadimi Cəfər Seyidəhməd Kırımərin xatirələrində yer alan bu məlumatlar Nəsib bəylə bağlı tarixi əhəmiyyət kəsb edir. Kırımər qeyd edir ki, Qaspıralı ciddi cəhdlə bizə elmə sarılmağı tövsiyyə edərkən, Nəsib bəy Yusifbəyli gənclərdə gördüyü imandan, fədakarlıq hisslərindən, xüsusi olaraq inqilab atəşi ilə yanmalarından, bütün əməllərinin xalqı yüksəltməyə və qurtarmağa meyilli olmasından çox sevindiyini bildirib, onları bu yola sadiq qalmağa və bu əməl üçün hazırlanmağa təşviq etdi. Yusifbəylinin bu sözləri kırımlı gəncləri o qədər həyacanlandırdı ki, Qaspıralıya saygılarını belə bir anlıq unudaraq onu böyük coşğu ilə uzun-uzun alqışladılar(1, 189). Nəsib bəy Yusifbəylinin dedikləri orada olan kırımlı tələbə C.S.Kırımərin yaddaşında o qədər dərin iz buraxıb ki, öz xatirələrində sonradan bu söhbətə yer verib. C.S.Kırımər Kırım Cümhuriyyətinin qurucu simaları arasında yer alır və onun ilk hökümət nümayəndələrindən biri olur.

Nəsib bəy Yusifbəyli Kırımın ziyalı elitası ilə ünsiyyət və yaxınlığı ilə birlikdə həmçinin Gəncə ictimai-siyasi mühitinin müştərək yetişdirdiyi önəmli fikir və siyasət adamı idi. Gəncə Məktəbi-Ruhanisinə bağlı ziyalılar, elm adamları Nəsib bəyin ətraf çevrəsinin güclənməsinə və böyüməsinə dəstək olmuşdu. Şeyxülislam Məhəmməd Pişnamazzadə, Hacı Məhəmmədhüseyin Rəfiyev, Mirzə Məhəmməd Axundzadə, Abdulla Sur, Mirzə Abbas Abbaszadə, İdris Axundzadə və digər ziyalılar bu işdə müstəsna xidmətlərə malikdir. Bununla birlikdə əlavə etmək lazımdır ki, Nəsib bəy intiriqalardan, ədavətdən, şöhrətpərəstlikdən və digər mənfi xüsusiyyətlərdən uzaq olduğu üçün həmişə sevilmiş və əhatəsinin böyüməsinə təkan vermişdir. Həmin dönəm fəaliyyəti ilə bağlı həyat yoldaşı Şəfiqə xanım Qaspıralının xatirələrində verilən məlumatlar Nəsib bəyin mücadilə yolunun necə çətin və



ağır yollardan keçdiyinə əsaslı bir mənbədir. Şəfiqə xanım qeyd edir ki, Nəsib universitetdə oxuyarkən Gəncədəki Mədrəseyi-Ruhani ətrafında böyük fəaliyyətə girişdi. ***Mədrəsənin islahı məsələsini ələ alaraq mərhum Axund Mirzə Ağası və Mirzə Məhəmməd Pişnamazzadələr ilə birlikdə bir çox işlər başarmışdılar. İlk iş olaraq Türkiyədən müəllim cəlbi oldu və bu işdə Nəsibə taleyi yar oldu. Odessada önünə Akif bəyi çıxardı. Sonradanda (yenə onun kimi Əbdülhəmid rejimi təqibindən qaçaraq Türkiyəni tərkedənlərdən) Faiq, Rıza, Zəki bəylər zühur etdilər və beləliklə müəllim məsələsi qismən həll edildi, sonra Türkiyəlilərə İran pasportu uyduruldu və mədrəsəyə müəllim oldular. Nəsibdə bu mədrəsədə 1 il rusca dərsi müəllimliyi etmişdi. Tədris kitabları Türkiyədən gəlirdi amma hökümət tərəfindən qəbul olunan kitablarda hər tələbənin sırasında düzülü idi.*** Mədrəsəni tez-tez ziyarət edən müfəttişlər baxış keçirirdi. 1907-ci ildə Nəsib kitab tükanı təsis etdi. Türkiyəyə gələr-gedər, kitab alar, kitabları keçirmək çarələri axtarar tapardı. Şübhəsiz bu dükan eyni zamanda bir fikir yayım, bir təşkilat mərkəzi idi. Hər gün Gəncənin münəvvər gəncləri dükanı ziyarət edərdi, bura siyasi bir klub halını alırdı. Nəsibdə bu haldan çox məmnun idi. Nəsibin ətrafında gənclər çoxalır, toplantılar dükandan evlərə köçür və beləliklə Türk Ədəmi Mərkəziyyəti Xalq Firqəsi doğmaq üzrə inkişaf edirdi(2, 56). Bu kitab dükanı Nəsib bəyin siyasi təşkilatlanma, münasibətlərin qurulması və dahada səmərəli işlərin görülməsi üçün zəmin hazırlayırdı. Şəfiqə xanım bununla bağlı qeyd edir ki, Bu dükan eyni zamanda bir fikir yayımı, bir təşkilat başlanğıcı idi. Gəncənin münəvvər gəncləri dükana hər gün toplanar, görüşüb söhbətlər edər və bura bir siyasi kulub halını almışdı. Nəsib bu haldan çox məmnun idi və oda həmiş orada idi. Dostlar hazırlanın vaxt gələcək bizdən çox iş istəniləcək, o zaman sizləri görüm. Bu toplantılar evlərə keçir və genişləyərək bir təşkilat olurdu. Nəsib tərəfindən idarə edilir və fəaliyyəti hökümətə hiss etdirilmədən davam etdirilirdi. Yalnız ara-sıra şübhə üzərinə gənclərin evlərində axtarışlar olurdu. Bizim evdəki ilk nəticəsi olaraq tapılan qadağan olunmuş rusca nəşriyyatı üzündən Nəsibin böyük qardaşı Gəncədən sürgün edilmişdi. 2-3 il Bağçasaray və İstanbulda yaşadıqdan sonra Gəncəyə dönmüşdü(2, 57).

Nəsib bəy həmçinin I Dumanın buraxılması ilə bağlı Çara qarşı imzalanmış Viborq Bəyannaməsinin gizli şəkildə Tərcüman mətbəsində çap edilməsinə başçılıq etmişdi. Bu təhlükəli və məsuliyyətli işin öhdəsindən gəlməyi bacarmışdılar. Bununla bağlı həyat yoldaşı Şəfiqə xanım təfsilatı ilə məlumat verib(2, 46-49).

Nəsib bəyin həmin dönəmdə Gəncədə və Bağçasarayda fəaliyyətinin mahiyyətini gözdən keçirərkən aydın olur ki, Çar Rusiyasının müsəlman əhalisinin siyasi aktivliyini artırmaq, təşkilatlandırmaq və gedən proseslərin fəal tərəflərindən birinə çevirmək idi. Bununla birlikdə Nəsib bəy Rusiyada və Osmanlıda gedən prosesləri diqqətlə izləməkdə və dəyərləndirməkdə idi. 1917-ci ilin fevral inqlabından az müddət sonra Nəsib bəy proqramlı və çox önəmli siyasi xadimlərdən ibarət olan partiya formasında hazır idi. Partiyanın proqramının elan edilməsi çox qısa zamanda etmad qazanmış və geniş kütlələrə sirayət etmişdi.

1917-ci ilin martında Gəncədə Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında Türk Ədəmi Mərkəziyyət Partiyası elan edildi. Partiya Avropa mədəni dəyərlərini mənimsəyən bir idealogiya sahib idi. Partiyanın hərfi mənada olduğu kimi, siyasi mənada da hürriyət, müstəqillik, məsuliyyət anlayışını vurğulayan desentralizasist(qeyri-mərkəziyyətçi) bir qurluşu var idi. Partiyanın adı Türkiyədə mövcud olmuş Ədəmi Mərkəziyyət Cəmiyyətindən götümüşdü. Prens Səbahəddinin qurduğu bu cəmiyyət İstanbuldakı İttihad partiyasının yolundan hərəkət edən Jön Türklər komitəsinin liberal qanadını təmsil etməkdə idi. Türk Ədəmi Mərkəziyyət Partiyası qurucuları bu cəmiyyətin Türkiyədə sürdüyü islahatların oxşar şəkildə Rusiyadakı millətlər üçün edilməsinə tərəfdar idi. TƏMP Rusiyadakı millətlərin gələcəyini qoruyan muxtariyyət formalı fedarativ qurluş fikrini mənimsəyirdi. “Ədəmi Mərkəziyyət” qavramı o zamankı Avropa dilində olan liberalizm qavramının Türk coğrafiyasında işlədilən bir şəkli idi(3, 172). Prens Səbahəddin Sultan Əbdülhəmidin bacısıoğlu idi, amma o Osmanlı imperiyasını fedarativ əsas üzərindən idarə olunmasına tərəfdar idi. Dönəmin bir çox siyasiləri, başda Nəsib bəy olmaqla Prens Səbahəddinin fikirlərindən yararlanmışdılar.

***Həmin dönəm fəaliyyəti ilə bağlı həyat yoldaşı Şəfiqə xanım Qaspıralının xatirələrində verilən məlumatlar Nəsib bəyin mücadilə yolunun necə çətin və ağır yollardan keçdiyinə əsaslı bir mənbədir. Şəfiqə xanım qeyd edir ki, Nəsib universitetdə oxuyarkən Gəncədəki Mədrəseyi-Ruhani ətrafında böyük fəaliyyətə girişdi. Mədrəsənin islahı məsələsini ələ alaraq mərhum Axund Mirzə Ağası və Mirzə Məhəmməd Pişnamazzadələr ilə birlikdə bir çox işlər başarmışdılar. İlk iş olaraq Türkiyədən müəllim cəlbi oldu və bu işdə Nəsibə taleyi yar oldu***

***Türk Ədəmi Mərkəziyyət Partiyası Azərbaycanda ilk liberal proqramlı partiya idi. İlkin olaraq məqsəd Çar Rusiyası daxilində Azərbaycana siyasi muxtariyyət almaq idi. Sürətlə dəyişən vəziyyətə müvafiq olaraq partiya dahada güclənmək, ideya və məfkurə olaraq yaxın olan partiya və təşkilatlar ilə birləşmək, Azərbaycan istiqlaliyyətinin əldə edilməsi ilə bağlı hərəkətə keçmək haqqında planlar müəyyən edirdi. Bu istiqamətdə fəaliyyət zamanı müəyyən kəsimlər, xüsusi olaraq dindarlar şayələr yaymağa başladılar ki, bəs Nəsib bəy bir kitab yazaraq(partiyanın proqramını nəzərdə tuturlar), bu kitabda “Artıq Qurani-Kərim köhnəlmiş, bizi idarə edə bilməz!”- demişdir. Xalq arasında dolaşan bu məlumatlara aydınlıq gətirmək məqsədi ilə N.Yusifbəyli xalqın nüfuzlu adamlarını bir yerə toplayıb yığıncaq keçirdi. Yığıncaqda camaat arasında ilk eşidilən söz bu olmuşdur: Artıq rus idarəsi qalmadı, hər işimizi şəriətə görə qurmalıyıq”. Lakin Nəsib bəy məharətlə vəziyyətdən çıxış yolu taparaq demişdi: Qarşımızdakılar millətimizin düşmənləridir. Milli varlığımızı qorumaq bütün işlərimizin başında gəlir. Düşmənlərimiz dinimizlə deyil, millətimizlə uğraşır(5, 78-79).***

**(davamı gələn sayımızda)**